## Dinamik, operativ və dolğun

*Azərbaycan Multimedia Mərkəzi dövlət orqanlarında internet saytlarının monitorinqi ilə bağlı növbəti ilkin nəticələri açıqlayıb*

Mərkəzin rəyində Vergilər Nazirliyinin www.taxes.gov.az internet saytının digər dövlət orqanlarının saytları ilə müqayisədə xeyli dinamik, operativ və dolğun olduğu bildirilir: «Vergilər Nazirliyinin internet saytı hər zaman olduğu kimi, yaxşı mənada, yenə də iddialı görünməkdədir. Bundan öncəki müşahidələrimizlə müqayisədə saytda yenə də xeyli irəliləyiş olduğu nəzərə çarpır», - açıqlamada bildirilir. Multimedia Mərkəzi bu irəliləyişi peşəkar işin, eləcə də yaxşı təcrübənin öyrənilərək tətbiq olunmasının nəticəsi kimi qiymətləndirir.

Monitorinqin yekunlarına dair məlumatda qeyd olunur ki, Vergilər Nazirliyinin internet saytı həmişəki kimi çevik və dolğun olması, yüksək funksionallıq və xüsusilə də bütün gərəkli e-xidmətlərin təklif edilməsi baxımından, doğrudan da örnək ola biləcək səviyyədədir. Bir vergi ödəyicisi və ya vergi xidmətlərindən yararlanmaq istəyən hər hansı şəxsin bu saytda tapa bilməyəcəyi bilgi yox dərəcəsindədir...

Multimedia Mərkəzinin rəhbəri, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz monitorinqin nəticələrini şərh edərək bildirmişdir ki, Vergilər Nazirliyi informasiya-kommunikasiya texnologiyalarının dövlət idarəçiliyində tətbiqi üçün durmadan davamlı işlər aparması ilə diqqəti cəlb edir. İnternet saytı da məhz bu sistemli işlərin nəticəsində son illər xeyli təkmilləşdirilib. Nazirlik elektron xidmətlərin təşkili ilə bağlı qarşıya qoyduğu məqsədlərə çatmaq üçün təkmil və geniş əhatəli bir iş qurub. İKT-nin son yeniliklərinin tətbiqi, informasiyanın açıqlığı və digər məsələlər Vergilər Nazirliyinin internet saytında açıq şəkildə özünü göstərir: «Sayt nazirliyin fəaliyyəti ilə bağlı informasiyaları tam və dolğun şəkildə təqdim edir. Burada, həmçinin, ziyarətçilərin qurum ilə əlaqə saxlaması üçün imkanlar baxımından lazım olan bütün məlumatlar təqdim edilir. Saytda nazirliyin bütün strukturları haqqında ətraflı bilgilər var». Rəydə sayt vasitəsilə nazirlik rəhbərliyi ilə əlaqə yaratmaq imkanları təqdir olunur, saytın texniki imkanlarının mükəmməl olduğu qeyd edilir.

Multimedia Mərkəzi saytda Vergilər Nazirliyinin işə qəbul qaydaları və vakant iş yerləri, eləcə də vətəndaşların qəbul şərtləri və rəhbər işçilərin qəbul günləri (saatları) barədə bütün məlumatların əks olunduğunu yüksək qiymətləndirir. Mərkəzin qənaətinə görə: «Vergilər Nazirliyinin www.taxes.gov.az internet saytı tövsiyəyə ən az ehtiyacı olan internet resursudur. Saytın, xüsusi olaraq, e-xidmətlər baxımından, demək olar ki, heç bir çatışmazlığı yoxdur, hətta deyə bilərik ki, bu resurs bir çox başqa dövlət qurumları üçün çox yaxşı nümunə təşkil edə bilər». Açıqlamada qeyd olunur ki, bu sahədə öndə olan dövlət strukturu kimi Vergilər Nazirliyinin e-xidmətlərlə bağlı mövcud təcrübəsi, internet resursları sahəsində yaxşı təcrübəsi digər dövlət və hökumət orqanlarının faydalanması üçün əlverişli fürsət yaradır.

**Elbrus CƏFƏRLİ**